**“Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**[1]

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 20-ci bəndlərini rəhbər tutaraq, “Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununu “Dini ekstremizmə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının 2015-ci il 4 dekabr tarixli 27-VQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

“Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, 2, maddə 82; 2001, 12, maddə 736; 2002, 3, maddə 116, 5, maddə 245; 2004, 2, maddələr 57, 58; 2005, 4, maddə 278; 2007, 8, maddə 752, 11, maddə 1079; 2009, 4, maddə 212, 8, maddə 611; 2010, 3, maddə 172; 2015, 2, maddə 82, 11, maddələr 1258, 1292; 2016, 1, maddə 40, 5, maddə 837) aşağıdakı dəyişikliklər edilsin:

1. 7-ci maddəyə aşağıdakı məzmunda üçüncü və dördüncü hissələr əlavə edilsin:

“Dini ekstremizm əleyhinə xüsusi əməliyyatın aparılması zonasında kütləvi informasiya vasitələri işçilərinin fəaliyyəti əməliyyat aparan orqan tərəfindən müəyyən edilir.

Dini ekstremizm əleyhinə aparılan xüsusi əməliyyat barədə ictimaiyyətə məlumatlar əməliyyat aparan orqanın müəyyən etdiyi formada və həcmdə verilir.”.

2. 11-ci maddənin birinci hissəsinin 4-cü bəndində “yol verilmir.” sözləri nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 5-ci bənd əlavə edilsin:

“5) “Dini ekstremizmə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun 9.3-cü maddəsində nəzərdə tutulmuş məlumatların yayılmasına yol verilmir.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 oktyabr 2016-cı il
368-VQD

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 30 dekabr 2021-ci il tarixli **471-VIQ** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 9 fevral 2022-ci il, 29 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 2, maddə 90**)

**QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 30 dekabr 2021-ci il tarixli **471-VIQ** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 9 fevral 2022-ci il, 29 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 2, maddə 90**) ilə ləğv edilmişdir.